## SABİR RÜSTƏMXANLININ HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Azərbaycan Respublikasının Xalq şairi, ictimai-siyasi xadimi Sabir Xudu oğlu Rüstəmxanlı 1946-cı il may ayının 20-də Yardımlının Hamarkənd kəndində anadan olmuşdur.***

| | |
|---|---|
| **1957** | On bir yaşında yazdığı "Kəndim" adlı ilk şeiri "Yeni kənd" rayon qəzetində dərc edilmişdir. |
| **1963** | Yardımlı qəsəbə onbirillik məktəbini bitirmiş, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. |
| **1964** | "Azərbaycan gəncləri" qəzetində çıxan "Kənd yolu" şeiri ilə ədəbi mühitə qədəm qoyub. |
| **1967-1978** | "Ədəbiyyat və incəsənət" qəzetində xüsusi müxbir və şöbə müdiri vəzifəsində işləmişdir. |
| **1968** | Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirmişdir. |
| **1970** | İlk kitabı nəşr olunmuşdur. |
| **1974-1975** | Ordu sıralarında xidmət etmişdir |
| **1974** | "Sevgim, sevincim" kitabı çap olunmuşdur. |
| **1976** | "Cəlil Məmmədquluzadə və folklor" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. |
| **1978** | Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. |
| **1978-1990** | "Yazıçı" nəşriyyatında incəsənət redaksiyasının müdiri, baş redaktorun müavini və baş redaktor vəzifələrində çalışıb. |
| **1978–1989** | "Yazıçı" nəşriyyatının baş redaktoru olmuş, yüzlərlə elmi, ədəbi-tənqidi, publisistik yazı çap etdirmişdir. |
| **1981** | "Gəncə qapısı" kitabı nəşr edilmişdir. |
| **1982** | Azərbaycan komsomolu mükafatına layiq görülmüşdür. |

| | |
|---|---|
| **1983** | “Sağ ol, ana dilim” kitabı çap olunmuşdur. |
| **1986** | “Qan yaddaşı” kitabı nəşr olunmuşdur. |
| **1988** | Milli azadlıq hərəkatının mənəvi təməllərindən biri olmuşdur. |
| **1988** | “Ömür kitabı” nəşr olunmuşdur. |
| **1989** | M.F.Axundzadə adına ədəbi mükafatın laureatı olmmuşdur. |
| **1989-1991** | Müstəqil demokratik mətbuatın öncüllərindən olan “Azərbaycan” qəzetinin təsisçisi və baş redaktoru olub. |
| **1990** | Azərbaycan Jurnalistlər Birliyinin mükafatına layiq görülmüşdür. |
| **1990** | Azərbaycan Xalq Cəbhəsindən parlamentə deputat seçilmiş, Müstəqil Azərbaycan Demokratik Bloku fraksiyasının həmsədri, Qaçqınlarla iş komissiyasının sədri olmuşdur. |
| **1991-1995** | Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziri təyin olunmuşdur. |
| **1992** | Bir qrup ziyalı ilə Vətəndaş Həmrəyliyi Partiyasını təsis etmişdir, bu günə qədər partiyanın sədridir. |
| **1993** | “Qızıl qələm” mükafatı ilə təltif olunmuşdur. |
| **1993, 12 may** | S. X. Rüstəmxanlı Azərbaycan Respublikasının mətbuat və informasiya naziri təyin edilmişdir. |
| **1995** | “Zaman məndən keçir” və “Bu sənin xalqındır” kitabları nəşr edilmişdir. |
| **1996** | Prezidentin fərmanı ilə “Şöhrət ordeni”nə layiq görülmüşdür. Bir müddət sonra S.Rüstəmxanlı “Şöhrət ordeni”ni almaqdan İmtina etmişdir. |
| **1997** | Türkiyədə “Bu yurd mənə tanış gəlir” adlı şeirlər kitabı buraxılmışdır. |

| | |
|---|---|
| **1998** | "Vətən" nəşriyyatında "Bütövlük həsrəti" şeirlər kitabı"Bütöv Azərbaycan Kitabxanası" seriyasının birinci kitabı kimi nəşr edilmişdir; |
| **2002** | "Atamın ruhu"  kitabı çap olunmuşdur. |
| **2003** | "Xətai yurdu" kitabı dərc edilmişdir. |
| **2004** | "Xətai yurdu" romanı İstanbulda Türkiyə türkcəsi ilə çap olunmuşdur; |
| **2005** | "Göy Tanrı" romanı çapdan çıxmışdır; |
| **2005, 12 may** | Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Xalq şairi" fəxri adını almışdır. |
| **2007** | Gəncə xanı Cavad xan haqqında "Ölüm zirvəsi" romanı nəşr edilmişdir; |
| **2005-2010 -2020** | Milli Məclisə keçirilən seçkilərdə deputat seçilib. |
| **2008-2011** | Dünya Azərbaycanlıları Konqresinə keçirilən X və XI qurultaylarında həmsədr seçilmişdir. |
| **2010** | "Difai fədailəri" romanı çapdan çıxmışdır; |
| **2011** | "Sunami" romanı "Qanun" nəşryatında çap edilmişdır; |
| **2012** | "Difai fədailəri" romanı, "Atamın ruhu" povesti, "Əbədi sevda" şeirlər və poemalardan ibarət kitabları təkrar nəşr edilmişdi. |
| **2013** | "Ölüm zirvəsi" romanı təkrar nəşr edilmişdir. |
| **2014** | "Dərdə əyilmə" adlı publisistika kitabı çapdan çıxmışdır. |
| **2015** | İstanbulda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyasında iştirak və çıxış etmişdir;<br>– İstanbulda Dünya Azərbaycanlıları Konqresinin 13-cü qurultayında təşkilatın həmsədri seçilmişdir; |

| | |
|---|---|
| **2016** | 23 may tarixində Azərbaycan Milli Dram Teatrında anadan olmasının 70 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmişdir. |
| **2017** | “Akademikin son əsəri” kitabı çap olunmuşdur. |
| **2018** | “Astar” kitabı nəşr edilmişdir.<br>Adana kitab sərgisində imza günü olmuşdur;<br>“Mili taleyimiz və biz”, “Astar” kitabları nəşr edilmişdir;<br>18 mart tarixində VHP-nin növbəti - 12-ci qurultayında iştirak etmişdir;<br>25 aprel tarixində Türkiyənin Amasya şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş yığıncaqda məruzə etmişdir;<br>22 iyun tarixində Bakıda Beynəlxalq Mətbuat Mərkəzində DAK-ın təşəbbüsü ilə keçirilən Qarabağ forumunda açılış nitqi söyləmiş və forumu idarə etmişdir;<br>21 sentyabr tarixində Mahaçqalada keçirilmiş kitab festivalında iştirak etmiş, Şeyx Şamilin son səngəri olan Qunib kəndini ziyarət etmiş və “Şeyx Şamili ziyarət” adlı məqalə yazmışdır;<br>24 oktyabr tarixində Azərbaycan Cümhuriy-yətinin 100 illiyinə həsr olunmuş Tokat Kitab bayramında imza günü keçirilmiş və oxucularla görüşü təşkil olunmuşdur; |
| **2019** | Mirzə Cəlil Məmmədquluzadə adına nəsr mükafatına layiq görülmüşdür;<br>“Qanun” nəşriyyatında “Özümüzdən böyük sözümüz” kitabı buraxılmışdır;<br>AMEA-nın Folklor inistitutu tərəfindən “Xalqın söz silahı” adlı kitabı nəşr edilmişdir; |
| **2021** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə yenidən "Şöhrət" ordeni ilə təltif edilmişdir. |

| | |
|---|---|
| | Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141–2021)" xatirə nişanı ilə təltif edilib.<br><br>15 cildlik "Seçilmiş əsərləri"nin 1-ci cildi (Şeirlər: 1962- 1977) və 2-ci cildi (Şeirlər: 1978-1987) "Qanun" nəşriyyatında çap olunmuşdur<br><br>Qarabağa dönüş" adlı poeması kitab şəklində "Qanun"nəşriyyatında çap olunmuşdur;<br><br>AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Xalq şairi Sabir Rüstəmxanlı: həyat və yaradıcılığı"adlı kitab "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur;<br><br>M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Sabir Rüstəmxanlı" biblioqrafiyasını nəşr etdirmişdir. |
| **2024-cü il 2 fevral** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 4289 nömrəli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir. |
| **2025, 23 dekabr** | Güney Azərbaycan ədəbiyyatı komissiyasının sədri seçilmişdir. |
| **2026** | Xalq şairi Sabir Rüstəmxanlı "Turan Bilgəsi" mükafatına layiq görülmüşdür. |